# “Asudə məkan”ın zəngləri



**Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi qalereyasında gənc rəssam Ülviyyə Axundovanın “Asudə məkan” adlı sərgisinin rəsmi açılışı olub.**

Qonaqlar arasında görkəmli fırça ustaları, yaradıcı ziyalılar və gənclər də var idi. Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, “Azərxalça” ASC İdarə Heyətinin sədri, Əməkdar İncəsənət xadimi Emin Məmmədov, rəssamın müəllimi Sevinc Abidova çıxışlarında ondan ən xoş sözlərini əsirgəmədilər. Qeyd edildi ki, ötən ilin dekabrında rəssamın “DÉTENTE” (səssizlik, hüzur) adlı fərdi sərgisi də uğurla keçib.

London İncəsənət Universitetində təhsil almış və Sotbi (Sotheby's) İncəsənət İnstitutunda İncəsənət Biznesi üzrə magistr dərəcəsinə yiyələnmiş Ülviyyə xanım bu sahə üzrə peşəkar kurator və məsləhətçidir. Onun özünün rəsm aləminə verdiyi töhfələr isə daxili dünyasına körpü salmaqla missiyasını gözəl əks etdirir. Əsərlər seyrçiləri sanki öz ecazkar dünyasına aparır, onları bu aləmin füsunkarlıqları ilə tanış edir. Hərtərəfli asudəliyi müxtəlif bədii üsullarla təsvir edən rəssam sükut dünyasında kəşf etdiyi gözəllikləri də məharətlə çəkib.

Ülviyyə Axundova rəsm sənətini həyatının ayrılmaz hissəsi hesab edir. O, öz yaradıcılığı ilə fərdi duyğularını orijinal formada sərgiləyə bilir. Ekspozisiyanı rəssamın 40-dan artıq əsəri bəzəyir.

***Fidan SALMANOVA,***
***Elşən AĞALAROV (foto)***
***XQ***

Xalq qəzeti .- 2024.- 31 may, № 113.- S.10.